11 noyabr / 2021

# Gəncədə şəhidlərin və qalib əsgərlərimizin şərəfinə ucaldılan abidə kompleksinin açılışı oldu




Vətən torpaqlarının bütövlüyü uğrunda millətimizin apardığı müqəddəs mübarizədə canlarını əsirgəməmiş gəncəlilərin xatirəsini əbədiləşdirən yeni abidə kompleksi Gəncənin Gülüstan qəsəbəsi ərazisində, "İstiqlal parkı"na daxil olan geniş bir sahədə salınıb. Abidə kompleksində Birinci Qarabağ savaşı və 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan igidlərimizin, habelə Ermənistan silahlı qüvvələrinin Gəncəni raket atəşinə tutması nəticəsində həlak olan mülki şəxslərin qranit lövhələr üzərində həkk edilən şəkilləri də yer alıb.

Gəncənin "İstiqlal parkı"nda yeni abidənin açılışı ilə bağlı ümumşəhər bayram tədbirində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Zeki Öztürk, Gürcüstanın Gəncədəki Baş konsulu Nikolos İaşvili, millət vəkilləri, ictimaiyyət nümayəndələri, şəhid ailələrinin üzvləri, Vətən müharibəsi iştirakçıları, sadə sakinlər iştirak ediblər.

Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən Gəncə şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə inşa edilən "Memorial Abidə Kompleksi"nin tikintisinə cari ilin may ayında başlanılıb. Ümumi sahəsi 1200 kvadrat metr olan Kompleks dəmir və betondan hazırlanmış lövhələrdən ibarətdir. Uzunluğu 50, hündürlüyü 5 metr olan lövhələrin üzərinə 600 nəfərə yaxın şəhidin şəkilləri vurulub. "Memorial Abidə Kompleksi"nin mərkəzi elementi olan Qalib Azərbaycan Əsgəri heykəlinin hündürlüyü isə postamentlə birlikdə 5 metr təşkil edir. Burada Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə iki bulaq da inşa edilib. Bulaqların hər birinin uzunluğu 6,1, eni 1,3, hündürlüyü isə 2,2 metrdir. Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən inşa etdirilən abidənin müəllifi Azərbaycan Respublikasının Əməkdar rəssamı Şərif Şərifovdur.

"Memorial Abidə Kompleksi" ilə tanışlıqdan sonra şəhid ailələrinin üzvlərinə söz verilib. Şəhid atası Miryunis Hüseynzadə, şəhid anası Briliant Əsərova, şəhid həyat yoldaşı Əfsanə Məmmədova, şəhid övladı Təqi Əsgərli çıxış edərək, Azərbaycan Ordusunun qazandığı şanlı qələbədən, igid oğullarımızın qəhrəmanlıqlarından danışıblar. Onlar, dövlət tərəfindən şəhid və qazi ailələrinin sosial rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən söz açıb, göstərilən diqqət və qayğıya görə ölkə başçısı, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Sonra Gəncə Dövlət Dram Teatrının kollektivi tərəfindən "Azərbaycan, Zəfər Günün mübarək!" adlı ədəbi-bədii kompozisiya nümayiş olunub. Gənclər sülh rəmzi olan 44 göyərçin havaya buraxıblar. Daha sonra Hərbi orkestrin keçidi izlənilib. Gəncənin "İstiqlal parkı"nda təşkil olunan bayram tədbirindən sonra şəhər rəhbərliyi və qonaqlar Heydər Əliyev Park-Komplesinə gəliblər. Burada 8 Noyabr - Zəfər Gününə həsr olunan ağacəkmə aksiyası keçirilib və 2500 eldar şamı və digər həmişəyaşıl ağaclar əkilib.

**Zakir MURADOV,**
**Gəncə**